# Maarifləndirici tədbir keçirilib

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin insan alverinə qarşı mübarizə baş idarəsi tərəfindən Qəbələ Dövlət Peşə Təhsil Mərkəzində "İnsan alverinin mahiyyəti, formaları, doğurduğu təhlükələr və onunla mübarizə" mövzusunda tədbir keçirilib.

Əvvəlcə məcburi əməyə qarşı maarifləndirici videoçarx nümayiş etdirilib.

Sonra Daxili İşlər Nazirliyinin insan alverinə qarşı mübarizə baş İdarəsinin xüsusilə mühüm işlər üzrə baş əməliyyat müvəkkili polis polkovniki Fuad Əliyev mövzu ilə bağlı ətraflı məlumat verib.

Maarifləndirici tədbirdə Qəbələ Regional QHT-lərin Resurs və Təlim Mərkəzinin icraçı direktoru Anar Məhərrəmov da təmsil etdiyi təşkilat tərəfindən insan alverinə qarşı mübarizə istiqamətində görülmüş işlərlə bağlı, eləcə də QHT-lərin insan alverinə qarşı mübarizə istiqamətində fəaliyyətinin əhəmiyyəti haqqında geniş məlumat verib .

Tədbir iştirakçılarına insan alveri cinayətinin törədilmə formalarını əks etdirən bukletlər paylanılıb və baş İdarənin əlaqə telefonları, qaynar xətt telefon xidmətinin nömrələri verilib.

**Qəbələ Regional QHT-lərin Resurs və Təlim Mərkəzinin mətbuat xidməti**

# Müqəddəs Ramazan ayı davam edir

İslam dinində müsəlmanlar üçün vacib sayılan orucluq davam edir.

Bu ibadətin tarixi müsəlman təqvimi ilə hicrinin 2-ci ilindən (miladi 623-cü il) başlanır. Oruc ay (qəməri) təqvimilə Ramazan ayında tutulduğu üçün ona «Ramazan orucu»da deyirlər.

Ramazan ayı, orucluq, insan nəfsinin paklığı, eyiblərin və naqisliyin islah olunması, ağıl, inam və iradənin saflaşması dövrüdür.

Orucluq vaxtı gündüz yemək, içmək, siqaret çəkmək, bəzək-düzək vurmaq, ətirlənmək və digər bu kimi hərəkətlər orucu pozur. Ac qalmaq orucun şərtlərindən yalnız biridir. İnsanın gözü, könlü, fikri belə orucluğu hiss etməli, bütün pis əməllərdən çəkinməlidir. Dinimizə görə oruc tutmaqdan yalnız uşaqlar, xəstələr, hamilə qadınlar, döyüşçülər, əsirlikdə olanlar və səyyahlar azad olunurlar.

İslamda Ramazan ayı ən şəfaqətli və müqəddəs ay hesab olunur. Çünki, bu ayın gecələrinin birində müqəddəs kitabımız Qurani-Kərim nazil olmuşdur. Həmin gecəyə qədir və ya ehya gecəsi deyilir. Qədir gecəsinin dəqiq olaraq Ramazan ayının neçənci gününə düşdüyü məlum deyil. İslam alimlərinin fikrincə həmin gecə Ramazan ayının 19,21, 23, 25, 27-sinə təsadüf edir.

Orucluğun başa çatdığı günü müsəlmanlar bayram edirlər. Fitr bayramı adlandırılan həmin gün müsəlmanlar bir-birini təbrik edir, vəfat edən yaxınlarının qəbrini ziarət edir, ruhlarına dualar oxuyurlar. Bayram günündən öncə hər bir müsəlman himayəsində olanların sayına uyğun fitr zəkatı verməlidir. Zəkatın miqdarı dini kitablarda əksini tapmışdır.

**Qüdrət SƏMALƏDDİNOĞLU, «Qəbələ»**

# Humanitar aksiya keçirilir

***Azərbaycan Respublikası Ədliyyə Nazirliyi, onun strukturları Azərbaycan Xalq Cümhuriyyətinin və respublikamızda ədliyyə orqanlarının yaranmasının 100 illiyi ilə əlaqədar bir sıra xeyriyyə tədbirləri həyata keçirir.***

***Bu istiqamətdə təşkil olunması nəzərdə tutulan tədbirlərdən biri də kimsəsiz qocalara, valideyin himayəsindən məhrum olmuş uşaqlara, məcburi köçkünlərə yardım aksiyasıdır. Bununla əlaqədar ölkənin bütün qeydiyyat idarələri tərəfindən humanitar aksiyalara başlanılmışdır.***

Qəbələ Rayon Qeydiyyat Şöbəsi də aksiyaya qoşularaq qocalar və uşaq evlərinə təqdim etmək üçün xeyli paltar, uşaq oyuncaqları, məktəb ləvazimatları və s. zəruri əşyalar toplamışdır. Bu xeyirxah missiyada bəzi iş adamları, mağaza sahibləri də fəallıq göstərmiş, qeydiyyat şöbəsinə öz köməkliklərini göstərmişlər. "Elegant" mağazasının sahibi Həbib Cabbarov və adının çəkilməsini istəməyən neçəneçə mağaza sahibləri aksiyaya qoşularaq xeyli geyim əşyaları hədiyyə etmişlər.

Qeydiyyat şöbəsinin kollektivi bu xeyirxah əməllərinə görə həmin şəxslərə öz dərin minnətdarlığını bildirir.

Məlumat üçün bildiririk ki, bu xeyirxah aksiyanın ilin axırınadək davam etdirilməsi nəzərdə tutulmuşdur. Bununla əlaqədar rayon ictmaiyyətinə, sahibkarlara üz tutaraq bu xeyirxah tədbirə hər kəsin qoşulmasını xahiş edirik. Gəlin məktəb ləvazimatları, uşaq oyuncaqları, az işlənmiş pal-paltar, hər nəyə imkanımız çatırsa onunla kimsəsiz qocalara və uşaqlara yardım etməyi əsirgəməyək!

Yardımları lazımi ünvanlara çatdırmaq üçün rayon qeydiyyat idarəsinə təqdim etmək olar.

*Ünvan: Heydər Əliyev prospekti 281, Qəbələ Rayon Qeydiyyat İdarəsi. (Polis şöbəsinin yanı)*

**Əlaqə nömrəsi:**051-323-20-33

**Zinyət BAĞIROVA, rayon qeydiyyat idarəsinin rəisi.**

# Təhsildə qabaqcıl təcrübədən səmərəli istifadə olunur

## Əyləncəli gecə təşkil edilib

***Azərbaycan Respublikası Təhsil Nazirliyinin tövsiyəsinə əsasən rayonumuzun 5 ümumtəhsil məktəbi Oğuz rayonunun məktəbləri ilə əməkdaşlıq edir. Qabaqcıl təcrübəni öyrənib işlərində tətbiq etmək üçün məktəblərin müəllimləri müntəzəm olaraq əməkdaşlıq etdikləri məktəblərdə olur, dərslərdə, digər təlim-tərbiyə məqsədli tədbirlərdə iştirak edirlər.***

Bu yaxınlarda Oğuz şəhər 3 nömrəli məktəb-liseyin bir qrup müəllimi Qəbələ şəhər 3 nömrəli tam orta məktəbində olub. Bu münasibətlə 3 nömrəli məktəbdə kimya-biologiya fənindən əyləncəli-öyrədici gecə təşkil edilib.

Tədbir iştirkçıları komandalar və münsiflər heyəti ilə tanış olduqdan sonra yarış iştirakçıları qalibiyyət ruhlu mahnı və şeirlərlə bir-birini salamlayıblar.

Respublika olimpiadalarında müxtəlif mükafatlar, medallar, Fəxri fərmanlar qazanmış şagirdlərin səhnəyə çıxışı alqışlarla qaşılanıb.

Kimya-biologiya gecəsində bir-birindən əyləncəli, öyrədici və diqqətəlayiq səhnəciklər maraqla qarşılanıb.

Məktəbin direktoru Ədilə Əliyeva yarış iştirakçılarını təbrik edib və onları hədiyyələrlə mükafatlandırıb.

Rayon təhsil şöbəsinin müdiri Arifə Bayramova tədbirin yüksək səviyyədə keçirilməsini məktəbin uğuru adlandırıb və təşkilatçılara təşəkkür edib.

Oğuz şəhər 3 nömrəli məktəb-liseyindən gəlmiş qonaqlar tədbirin maraqlı və orijinal hazırlandığını, şagirdlərin yaxşı bilik nümayiş etdirdiklərini vurğulayıblar.

**Könül NƏBİYEVA, məktəb direktorunun müavini.**

## Xoş təəssüratla ayrılıblar

***Oğuz rayonunun Tale Babayev adına Yaqublu kənd tam orta məktəbinin direktoru əməkdar müəllim İmran Verdiyev başda olmaqla bir qrup müəllimi İlham Abdulkərimov adına Nohurqışlaq kənd tam orta məktəbində olub. Qonaqlar məktəbin sinif otaqları, fənn kabinələri, laboratoriyaları, idman zalı kompüter otağı və sairlə tanış olduqdan sonra biologiya, tarix, kimya fənlərindən açıq dərslərdə iştirak ediblər. Müəllim Nigar Babayevanın riyaziyyatdan təşkil etdiyi əyləncəli yarış qonaqlar tərəfindən maraqla qarşılanıb.***

Sonda qonaqların iştirakılə "Dəyirmi masa" təşkil olunub, fikir mübadiləsi aparılıb.

Rayon təhsil şöbəsinin müdiri Arifə Bayramova məlumat verib ki, məktəbin yeni binası 2006-cı ildə ölkə Prezidenti cənab İlham Əliyevin və xanımı Mehriban Əliyevanın iştirakılə istifadəyə verilib. Ölkə Prezidentinin sərəncamı ilə 2010-2011-ci tədris ilində məktəb «Respublikanın qabaqcıl orta məktəbi» adına layiq görülüb və 10000 manat mükafat alıb. Məktəbin 2 şagirdi qızıl medalla təltif olunub , 2 nəfər şagirdi isə fənn olimpiadalarının qalibi olub.

Oğuzlu qonaqlar məktəbdən xoş təəssüratlarla ayrılıblar.

**Yaqub TAHİROV, məktəbin direktoru.**

# Birincilərin sevinci

***Qafur Şərifov adına Uludaş kənd tam orta məktəbində o gün birincilərin sevinci hədsiz-hüdudsuz idi. Həmin gün birincilərin valideyinləri də məktəbə gəlmiş, onların sevinclərinə şərik olmuşdular. Çünki onların övladlarının "Əlifba bayramı" keçirilirdi...***

Bayram şənliyi şagirdlərin ifa etdikləri Dövlət Himni ilə açılıb.

Tədbirdə məktəbin direktoru Sadəddin Eldarov birinciləri bayram münasibətilə təbrik edib, onlara təhsillərində uğurlar arzulayıb.

Sonra şagirdlərə söz verirlib. Onların ifasında Vətənə, məktəbə, müəllimə həsr olunmuş mahnı və şeirlər səsləndirilib.

Birinci sinif şagirdi Səid Ağasıyev Səməd Vurğunun sözlərinə bəstələnmiş "Azərbaycan" mahnısını oxuyub.

Sonra məktəblilərin səhnələşdirdikləri "Turp" nağılı tədbir iştirakçılarına göstərilib.

Yekunda məktəbin müəllimlərindən Rəna Eldarova, Nurlanə Qasımova, valideyinlərdən Sədayə Bayramova, Möhtərəm Abduxalıqova və Aybəniz Mürsəliyeva əlifbanı öyrəndiklərinə görə birinciləri təbrik edib, onlara xoşbəxt gələcək arzulayıblar.

**Emin Ədilli, "Qızıl Qələm" media mükafatı laureatı, "Qəbələ"nin müxbir postunun rəhbəri.**

# Qarşılıqlı əməkdaşlıq

Bu günlərdə İlham Abdulkərimov adına Nohurqışlaq kənd tam orta məktəbinin bir qrup müəllimi qarşılıqlı əməkdaşlıq çərçivəsində məktəbimizdə olmuşdur. Nümayəndələr əvvəlcə müəssisənin maddi-texniki bazası və iş şəraiti ilə tanış edilmişlər. Onlara təlim prosesində istifadə olunan texniki-təlim vasitələri və İKT avadanlıqlarıı barədə ətraflı məlumat verilmişdir.

Sonra qonaqlar Azərbaycan tarixi və fizika fənnləri üzrə keçirilən "açıq dərslər"i dinləmiş və bu dərslərin təhlilində iştirak etmişlər.

Qəbələli həmkarlarımız məktəbdə istedadlı şagirdlərin seçilməsi, onlarla aparılan işlərin təşkili ilə tanış olmuş, məktəblilərin əl işlərindən ibarət sərgiyə, mini-futbol yarışına və şagirdlərin Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi münasibətilə hazırladıqları ədəbi-bədii kompozisiyaya tamaşa etmişlər.

"Təhsilin keyfiyyətinin yüksəldilməsinin optimal yolları" mövzusunda keçirilən "Dəyirmi masa" isə görüşün zirvəsini təşkil etmişdir. "Dəyirmi masa"da təhsilin keyfiyyətini yüksəltməyin optimal yolları barədə maraqlı və faydalı təkliflər səslənmiş, müasir təlim metodlarının tətbiqi ilə əlaqədar qeyri-formal debat olmuşdur. Eləcə də "Təhsildə keyfiyyət ili" ilə əlaqədar məktəblərdə görülmüş işlərdən söhbət açılmış, qarşılıqlı əməkdaşlığın perspektivləri müzakirə edilmişdir.

"Dəyirmi masa"nı Oğuz RTŞ-nin müdiri Elçin Kərimov yekunlaşdırmışdır. O, qeyd etmişdir ki, "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"n da təhsilin keyfiyyəti başlıca strateji prioritet elan olunmuş, Təhsil Nazirliyi müasir dövrün çağırışlarına əsaslanaraq 2017-2018-ci dərs ilini ölkənin ümumi təhsil müəssisələrində "Təhsildə keyfiyyət ili" elan etmişdir. Şöbə müdiri əməkdaşlıq edən hər iki məktəbdə təhsilin keyfiyyətinin yüksəldilməsi istiqamətində xeyli iş görüldüyünü bildirmişdir. O, təhsilin keyfiyyətinin yüksəldilməsində məktəblər arasında səmərəli əməkdaşlıq əlaqələrinin xüsusi önəm daşıdığını vurğulayaraq bu işdə hər iki məktəbin kollektivinə uğurlar arzulamışdır.

Məktəblər arasındakı qarşılıqlı əməkdaşlığın gələcəkdə də davam etdirilməsi nəzərdə tutulmuşdur.

**İmran Verdiyev, Oğuz rayonundakı Tale Babayev adına Yaqublu kənd tam orta məktəbin direktoru, əməkdar müəllim.**